**AZƏRBAYCAN RESPUBLİKASININ**

**AUDİTORLAR PALATASI ŞURASININ**

**QƏRARI**

**Bakı şəhəri** **№299/1** **16 aprel 2018-ci il**

**Auditorlar Palatasının 2017-ci il üzrə maliyyə hesabatlarının hazırlanması və onun auditinin aparılması barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2018-ci il üzrə iş planının 8.5-ci "Auditorlar Palatasının 2017-ci il üzrə maliyyə hesabatlarının hazırlanması və onun auditinin aparılması" bəndinin icrası ilə əlaqədar "HLB Azərbaycan" MMC tərəfindən auditi aparılmış "01.01.2017-31.12.2017-ci maliyyə ili üzrə Azərbaycan Respublikası Auditorlar Palatasının Maliyyə hesabatları"na dair Maliyyə və təşkilati-texniki təminat idarəsinin rəisi V.Rəhimovun məruzəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Maliyyə və təşkilati-texniki təminat idarəsi (V.Rəhimov) tərəfindən hazırlanmış "01.01.2017-31.12.2017-ci maliyyə ili üzrə Azərbaycan Respublikası Auditorlar Palatasının Maliyyə hesabatları" nəzərə alınsın (əlavə olunur).
2. Maliyyə və təşkilati-texniki təminat idarəsinə (V.Rəhimov) tapşırılsın ki, bir ay müddətində Auditorlar Palatasının debitor borc məbləğləri və onların yığım imkanına dair arayış hazırlayıb rəhbərliyə təqdim etsin.
3. Maliyyə və təşkilati-texniki təminat idarəsinə (V.Rəhimov) tapşırılsın ki, Palatanın maliyyə-təsərrüfat fəaliyyətində xərclərin azaldılması istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.
4. Palata sədrinin müşaviri F.Qarayevə və Aparatın informasiya texnologiyaları üzrə mütəxəssisi İ.Zeynallıya tapşırılsın ki, bir həftə müddətində həmin hesabatın azərbaycan və ingilis dillərində Palatanın internet səhifəsində yerləşdirilməsini və ingilis dili variantının Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC) göndərilməsini təmin etsinlər.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**